www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-17 (1800) 15 oktyabr 2024-cü il




## Türk Dövlətləri Təşkilatı səhiyyə nazirlərinin Şuşada IV iclası keçirilib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli tədbirdə iştirak edib**

səh. 2

### “Startaplara ATU ilə başla” təlimləri davam edir

səh. 4

### Beynəlxalq konqresdə uşaq sağlamlığı müzakirəyə çıxarılıb

səh. 4

### 100 yaşlı xəstə Tədris Cərrahiyyə Klinikasında uğurlu əməliyyat olunub

səh.7



### ATU-nun rektoru Prezident təqaüdçüləri ilə görüşüb

Professor Gəray Gəraybəyli tələbələrin bu yüksək adı sonadək qoruyacaqlarına inamını ifadə edib

səh. 2

### Süd vəzi xərçəngi – ilkin əlamətləri olmayan qorxulu xəstəlik

*Dosent Nigar Mehdiyeva: Xəstəlik nə qədər tez aşkarlanarsa, müalicəsi də bir o qədər effektiv və uğurlu olar*

səh. 5

### Gözlərimizi nurlandıranlar

*Ümumdünya Görmə Günündə Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsində olduq*

səh. 5



### Müəllim adının zirvəsinə ucalmış şəxsiyyət

Professor Sabir Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

səh.3

# Türk Dövlətləri Təşkilatı səhiyyə nazirlərinin Şuşada IV iclası keçirilib

## Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli tədbirdə iştirak edib

**Şuşada Türk Dövlətləri Təşkilatı (TDT) və Azərbaycan Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə quruma üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası keçirilib.**




Tədbirdə TDT-nin Baş katibi, üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, dosent Əsədulla Sultanov, həmçinin müxtəlif ölkələrdən dəvət olunan elm adamları iştirak ediblər.

Əvvəlcə TDT-nin fəaliyyətini əks etdirən, həmçinin Şuşa şəhərinə həsr olunan videoçarxlar nümayiş olunub.

TDT-nin Baş katibi Kubanıçbek Ömüraliyev ötən həftə qurumun yaradılması haqqında Naxçıvan Sazişinin imzalanmasının 15-ci ildönümünün qeyd olunduğunu deyərək bildirib ki, təşkilata üzv dövlətlər arasında səhiyyə sahəsində ikitərəfli və faydalı əməkdaşlıq mövcuddur: "Bizim də səylərimiz xüsusilə çoxtərəfli əməkdaşlığın dərinləşməsinə yönəlib. "Türktransplant sisteminin yaradılmasına dair Niyyət Protokolu"nun imzalanması və "2025-ci il üçün səhiyyə sahəsində əməkdaşlıq üzrə TDT-nin İş qrupunun Fəaliyyət Planı"nın təsdiq edilməsi qərarını alqışlayırıq".

Tədbirin açılışında çıxış edən Azərbaycanın səhiyyə naziri Teymur Musayev Türk Dövlətləri Təşkilatının səhiyyə nazirlərinin IV iclasının Şuşada keçirilməsinin tarixi və qürurverici hadisə olduğunu vurğulayıb. “Türk dünyasının böyük oğlu və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyib: “Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”.

TDT-yə üzv ölkələrin xalqları arasında möhkəm təməllər üzərində qurulan münasibətlərin vacibliyini qeyd edən T.Musayev bunun səhiyyə sahəsində də əlaqələrin ən yüksək səviyyədə inkişafına zəmin yaratdığını bildirib: “Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə Prezident İlham Əliyev təşkilata üzv ölkələrlə bütün sahələrdə əlaqələrin inkişafının Azərbaycanın xarici siyasətinin prioritetləri arasında olduğunu vurğulayıb”.

Tədbir iştirakçılarını salamlayan Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov vurğulayıb ki, ərazi bütövlüyümüz tam bərpa edildikdən sonra regionda genişmiqyaslı yenidənqurma və bərpa işləri həyata keçirilir. Onun sözlərinə görə, azad edilən digər ərazilərdə olduğu kimi, Şuşada da səhiyyə ocaqlarının ən qabaqcıl standartlara uyğun olaraq inşası dövlətimiz üçün prioritet məsələlərdəndir.

Türkiyənin səhiyyə naziri Kemal Memişoğlu, Özbəkistanın səhiyyə nazirinin birinci müavini Davron Sultanov, Qazaxıstanın səhiyyə nazirinin müavini Yerbol Ospanov, Qırğızıstanın səhiyyə naziri Alımkadır Beyşenaliev, Şimali Kipr Türk Respublikasının səhiyyə naziri Hakan Dinçyürek və Macarıstanın təmsilçisi tədbirin yüksək səviyyədə təşkil olunduğunu və ölkələr arasında əməkdaşlığın yeni prizmadan inkişafına təkan verəcəyini vurğulayıblar.

Təşkilata üzv və müşahidəçi ölkələrinin səhiyyə nazirləri, həmçinin Azərbaycanın "Türktransplant" sisteminin yaradılmasına dair təşəbbüsünü yüksək qiymətləndiriblər.

Daha sonra ÜST-nin Avropa üzrə regional direktoru Hans Henri Klugenin tədbir iştirakçılarına ünvanlandığı videomüraciəti dinlənilib.

Tədbir çərçivəsində "Türktransplantın təsis edilməsinə dair Niyyət Protokolu" imzalanıb. Eyni zamanda TDT-yə üzv və müşahidəçi ölkələrin Səhiyyə nazirliklərinin elmi-tədqiqat institutları və mərkəzləri arasında onkologiya, kardiologiya, oftalmologiya, pediatriya, travmatologiya və ortopediya sahələrinə aid bir sıra anlaşma memorandumlarının imzalanması baş tutub.

Tədbirin sonunda yekun sənəd - Birgə Bəyannamə qəbul edilib.



# ATU-nun rektoru Prezident təqaüdçüləri ilə görüşüb

## Professor Gəray Gəraybəyli tələbələrin bu yüksək adı sonadək qoruyacaqlarına inamını ifadə edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 5-də imzaladığı Sərəncama əsasən, 2024/25-ci tədris ilində ölkəmizin ali məktəblərinə daxil olan 102 tələbəyə Prezident təqaüdü təyin edilib. Onlardan 25-i Azərbaycan Tibb Universitetini seçib.**

Oktyabrın 11-də ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu il universitetə qəbul olunan Prezident təqaüdçüləri ilə görüşüb. Rektor bildirib ki, hər il ATU-nun 1-ci kursuna yüksək ballarla daxil olan və Prezident təqaüdünə layiq görülən tələbələrlə xüsusi görüş keçirilir: “Bu görüş tədris ilinin əvvəllərində baş tutsaydı, bəlkə də daha məntiqli olardı. Ancaq rəsmi siyahılar bir az gec hazır olduğundan, artıq neçənci ildir ki, bizim görüşlərimiz oktyabr ayına təsadüf edir. Digər tərəfdən isə, bəlkə də belə olması yaxşıdır. Belə ki, siz artıq auditoriyalarla tanış olmusunuz, universitetimiz barədə müəyyən təsəvvürləriniz formalaşıb.

İlk növbədə, hər birinizi Tibb Universiteti ailəsinə daxil olmağınız münasibəti ilə təbrik edirəm. Qarşıda 6 il tələbəlik həyatınız olacaq, sonra bəziləriniz rezidentura və digər pillələrdə təhsil alacaq, hətta sıralarınızdan gələcək müəllimlərimiz də yetişəcək. Bir sözlə, siz uzun müddət üçün öz həyat və fəaliyyətinizi ATU ilə bağlamış olursunuz. Həm buna görə, həm də yüksək bal toplayaraq böyük uğura imza atmağınız, Prezident təqaüdçüsü adını qazanmağınız münasibətilə sizi təbrik edirəm”.

Rektor, Prezident təqaüdçülərinin sayına görə universitetimizin ölkə ali məktəbləri arasında həmişə ön yerlərdə olduğunu diqqətə çatdırıb: “Bu tələbələrin böyük bir qisminin Azərbaycan Tibb Universitetini seçməsi qürurverici haldır. Həm də sevindiricidir ki, insanların sağlamlığının keşiyində dayanacaq sabahın həkimləri bu gün imtahanlarda yüksək nəticə göstərən sizlər olacaqsınız. Bu, böyük bir uğurdur. Bu uğuru heç də asanlıqla əldə etməmisiniz. Orta məktəbdə oxuyanda zəhmət çəkmisiniz, yəqin yuxusuz gecələriniz də olub. Və bu əziyyətin nəticəsidir ki, ölkəmizin qocaman və aparıcı ali təhsil ocaqlarından biri olan Tibb Universitetinin Prezident təqaüdçüsü tələbələrisiniz”.

Professor G.Gəraybəyli 25 nəfərin əksəriyyətinin Müalicə-profilaktika fakültəsinin, bir nəfərin isə Stomatologiya fakültəsinin tələbələri olduğunu diqqətə çatdırıb.

Dərslərin artıq yeni proqramla aparıldığını vurğulayan rektor, tələbələrə tövsiyələr də verib: “Çox istərdim ki, təhsil müddətində sayınız azalmasın. Biz universitetin Böyük Elmi Şurasında imtahan sessiyaları barədə məlumatları müzakirəyə çıxarır, Prezident təqaüdçülərinin göstəricilərini də təhlil edir, kimlərin bu adı qoruyub saxladığını, eləcə də sayın azalması səbəblərini araşdırırıq. Təbiidir ki, universitet təhsili kifayət qədər çətindir. Xüsusilə də Tibb Universitetində fənlər, dərsliklər və proqramlar çoxdur. Üstəlik də, proqramlar ilbəil təkmilləşir və dəyişir. Bu, zamanın tələbidir. Onları mənimsəmək xüsusi bir zəhmət və istedad tələb edir. Amma əminəm ki, hər birinizdə o bilik, o intellekt və o məsuliyyət hissi var. Arzu edirəm ki, Prezident təqaüdçüsü adını 6-cı kursun sonunadək qoruyub saxlaya biləsiniz”.



Rektor görüşdə iştirak edən dekanlara tapşırıqlar da verib: “Burada sizin dekanlar, Tədris Departamentinin rəhbəri iştirak edir. Onlara üz tutub deyirəm ki, Prezident təqaüdçülərinə xüsusi yanaşsınlar. Hansısa probleminiz və ya çətinliyiniz olarsa, dekanlarınıza müraciət edin. Kafedralarda isə kafedra müdirləri, əməkdaşlar, öz müəllimləriniz sizə hərtərəfli kömək, qayğı göstərməyə hazırdır. Universitet rəhbərliyinin qapıları da hər saman sizlərin üzünə açıqdır. Bir daha sizləri və ailələrinizi təbrik edir, hər birinizə uğurlar arzulayıram”.

Görüşdə Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubov, I Müalicə-pofilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov, II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva iştirak ediblər.

Görüşün sonunda tələbələrə hədiyyələr təqdim olunub.

**2024/25-ci tədris ilində Azərbaycan Tibb Universitetinə daxil olmuş Prezident təqaüdçüləri və onların topladığı ballar**

| | |
|---|---|
| *I Müalicə-profilaktika fakültəsinin “Tibb” ixtisası üzrə:* | |
| Abbaslı Səma Hüseyn | 692.6 |
| Məmmədli Murad Gəray | 690.9 |
| Abbasov Orxan Taleh | 690.8 |
| Əlizadə Ülvi Rövşən | 685.1 |
| Mirzaliyev Fuad Yaşar | 682.8 |
| Rəhimova Səidə Ruhib | 681.3 |
| Ağazadə Nərmin Teymur | 680.8 |
| Əmirov Coşqun Rafiq | 678.7 |
| *II Müalicə-profilaktika fakültəsinin “Tibb” ixtisası üzrə:* | |
| Hüseynova Nuray Emin | 697.0 |
| Ağakişiyeva Aysu Asif | 683.1 |
| Yusibov Elşən Səfa | 682.2 |
| Rüstəmova Validə Elçin | 681.0 |
| Hacıbabayeva Gülafət Anar | 679.0 |
| Əhmədova Nəzrin Ramil | 697.0 |
| Məmmədli Röya Əlizamin | 690.7 |
| Eyvazov Maarif Seymur | 689.6 |
| Səfərli Ayişə Bəxtiyar | 687.6 |
| Abdullayeva Rəna Natiq | 684.9 |
| Qafarzadə Zəhra Zaur | 683.6 |
| Şirinli Raul Rəşid | 682.9 |
| Rüstəmli Fidan Ayət | 682.8 |
| Hüseynova Pakizə Namil | 681.6 |
| Hüseynzadə Nəzrin Fuad | 681.4 |
| Məmmədli Ceyhun Azər | 680.3 |
| *Stomatologiya fakültəsinin “Stomatologiya” ixtisası üzrə:* | |
| Kərimov Fuad Daşqin | 677.7 |



# Müəllim adının zirvəsinə ucalmış şəxsiyyət

## Professor Sabir Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

**Oktyabrın 4-də ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, əməkdar elm xadimi, əməkdar müəllim, tibb elmləri doktoru Sabir Cahan oğlu Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Təbabətin aktual problemlərinin müzakirəsinə dair sessiya iclasları ilə başlayan konfransın daha sonra təntənəli açılış mərasimi olub. Bütün tədbir iştirakçılarını salamlayan yubiley konfransının aparıcısı, ATU-nun Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayev çox dəyərli qonaqların görkəmli alimin 80 illiyinə təşrif buyurmasından məmnunluğunu ifadə edərək, təbrik üçün ilk sözü universitetin rektoru, professor Gəray Gəraybəyliyə verib.**



Təbrik nitqində respublikamızın ictimai həyatında dərin iz qoymuş insanların yubileylərinin keçirilməsi ənənəsinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu xatırladan professor Gəray Gəraybəyli, bu cür ənənələrin hazırda da davam etdirildiyini, belə tədbirlərin keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb: "Çünki keçmişi olmayan xalqın gələcəyi də olmaz. Öz sahəsində, öz sənətində dərin iz qoymuş, zəngin yol keçmiş insanların həyat və fəaliyyətinin öyrənilməsi həm bir məktəbdir, həm də gələcək nəslin tərbiyəsində vacib amildir. Bu baxımdan Azərbaycan Tibb Universiteti ölkəmizin ən zəngin tarixi olan ali məktəblərindən biridir. Amma bu tarixi formalaşdıran heç də quru divarlar, daşlar və yaxud masalar yox, insanlar, sözün əsl mənasında böyük şəxsiyyətlərdir. Məhz ona görə bu gün fəxarətlə deyirik ki, universitetimizin tarixi Əziz Əliyev, Zərifə xanım Əliyeva, Mustafa bəy Topçubaşov, Böyükkişi Ağayev, Cahangir Abdullayev və adlarını çəkmədiyim bir çox görkəmli şəxsiyyətlərlə zəngindir".

Universitetimizin həyatında dərin iz qoymuş ziyalılarımızın sırasında professor Sabir Əliyevin də xüsusi yer tutduğunu söyləyən rektor, ömrünün 55 ilini bu qocaman ali təhsil ocağına bağlayan yubilyarın çox maraqlı, hərtərəfli və heç də asan olmayan şərəfli bir yol keçdiyini, patofiziologiya elmində bir çox nailiyyətlər əldə etdiyini, əsl pedaqoq olduğunu diqqətə çatdırıb: "Çox hörmətli Sabir müəllim, sizin istər elmi istiqamətdə, istər tədris sahəsində, istərsə də universitetimizin ictimai həyatında böyük xidmətləriniz var. Bir çox diplomlara, orden və medallara, fəxri adlara layiq görülmüsünüz. Amma mənim düşüncəmə görə, bütün titullarınız, adlarınız içərisində ən böyük adınız MÜƏLLİM adıdır. Bu müqəddəs adın zirvəsinə qalxmaq heç də hamıya nəsib olmur. Siz isə məhz bu zirvəyə ucalmış bir şəxsiyyətsiz".

Tələbəlikdə əziz müəllimindən tibb elmini öyrəndiyini, son 9 ilə yaxın bir müddətdə universitetin rəhbərliyində birgə çalışarkən isə başqa dərslər aldığını deyən rektor, bu səmimi, sadə, uzaqgörən, müdrik insanın yubiley yaşını bir daha bütün kolleqaları, professor-müəllim heyəti, rezidentlər və tələbələr adından təbrik edərək, ona möhkəm cansağlığı, uzun ömür diləyib.

Bundan sonra professor Sabir Əliyevin fəaliyyətinə həsr olunmuş "Ömrün müdrik fəsli" adlı film nümayiş etdirilib. Filmdə yubilyarın 80 il əvvəl dünyaya göz açdığı Çəmbərək (Krasnoselo) rayonunun Əmirxeyir kəndinin gözəl mənzərəsi fonunda onun həyat yoluna işıq salınıb. Nümunəvi bir ailədə doğulmasından, uşaqlıq illərindən, Gölkənd kənd orta məktəbini medalla bitirərək Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olunmasının Qaraqoyunlu dərəsində böyük əks-səda doğurmasından danışılıb. Ekranda onun çoxşaxəli elmi, pedaqoji fəaliyyətinin bir-birindən zəngin səhifələri canlandırılıb. Film boyu yubilyar haqqında ailə üzvlərinin,





dostlarının, həmkarlarının xoş təəssüratları, xatirələri də səsləndirilib. Maraqlı təəssüratların davamı olaraq professor İbadulla Ağayev yubilyarın bioqrafiyasından daha ətraflı söz açıb.

Səhiyyə nazirinin müavini, dosent Nadir Zeynalov çıxışında professor Sabir Əliyevin Azərbaycan Tibb Universitetinin tarixinə adını yazdırmış bir ziyalı olduğunu qeyd edib. Sabir Əliyevi tələbələrin dostu adlandıran nazir müavini onun tələbələrə daim ədalətli yanaşdığını, eyni zamanda, məsuliyyətli və tələbkar pedaqoq olduğunu deyib: "Sabir müəllimi tələbəlik illərindən tanıyıram. O vaxt kafedranın tədris hissə müdiri idi. Bizim qrupa dərs deməsə də, haqqında tələbələrdən çox müsbət fikirlər eşitmişdim. Universitetin rəhbərliyində birgə çalışdığımız sonrakı illərdə Sabir müəllimin başqa tərəflərini də gördüm. Özünə qarşı tələbkar olduğu kimi, əməkdaşların işinə də həmişə tələbkarlıqla yanaşan Sabir müəllim həm də vətənpərvər bir insandır. O, xarici qonaqlarla görüşlərdə mütləq siyasi problemlərə toxunar, ermənilərin təcavüzü, Dağlıq Qarabağ məsələsi, Xocalı soyqırımı, xüsusilə soydaşlarımızın Qərbi Azərbaycandan zorakılıqla qovulması barədə danışardı".

Zahirən çox ciddi, ağır təbiətli bir insan təsiri bağışlayan Sabir müəllimin həm də incə yumor hissinə malik bir insan olduğunu xatırladan nazir müavini, bu gözəl yubiley günündə onu və ailə üzvlərini təbrik edib, həmişə belə gümrah qalmasını arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Misir Mərdanov çıxışı zamanı öncə Sabir müəllimin mənsub olduğu ailənin Qaraqoyunlu mahalında, Qərbi Azərbaycanda, Gəncəbasarda böyük nüfuz sahibi olmasına diqqət çəkib. Onun vətənpərvərliyi, milli təəssübkeşliyi, xalqa, dövlətə bağlılığını belə bir ailədə böyüməsi ilə əlaqələndirib: "Atası Cahan kişinin ömrü boyu ermənilərlə mübarizə aparması, şovinist millətçilərin əhatəsində böyüməsi, evlərində daim mövcud olan milli əhval-ruhiyyə, şahidi olduğu irili-xırdalı hadisələr, Qərbi Azərbaycan ağrısı, Xocalı soyqırımı, torpaqlarımızın işğalı onu fədakar bir azərbaycanlı kimi formalaşdırmışdır. Siyasi uzaqgörənliyi və iti fəhmi də bu işdə onun köməyinə gəlmişdir. O, keçən əsrin 60-cı illərindən etibarən Ümummilli Liderə tükənməz inam və ehtiramla yanaşmış, onun dövlət quruculuğu istiqamətində gördüyü titanik işləri, məqsədyönlü fəaliyyəti doğru-düzgün dəyərləndirə bilmiş, 90-cı illərin əvvəllərində ölkəmizdə baş verən xaos və qarşıdurmalar zamanı qətiyyətlə onun mövqeyini müdafiə etmişdir".

İndiki səviyyəyə öz savadı, bacarığı, zəhməti və səbri ilə pillə-pillə ucalan Sabir müəllimi yubileyi münasibətilə təbrik edən natiq, eyni zamanda onun fəaliyyətinə verdikləri yüksək dəyərə görə rektor, professor Gəray Gəraybəyli başda olmaqla yubiley tədbirinin təşkilatçılarına Qaraqoyunlu camaatı, Qərbi Azərbaycan icması adından təşəkkürünü bildirib.

Sonra yubiley konfransına Azərbaycan Ağsaqqallar Şurasının sədri, professor Eldar Quliyevin tapşırığı ilə gəldiyini söyləyən şuranın sədr müavini Bayram Yusifov öz ürək sözlərini tədbir iştirakçıları ilə bölüşüb. O, Nəsimi rayon Ağsaqqallar Şurasının sədri, professor Vaqif Şadlinskinin təqdimatı əsasında Respublika Ağsaqqallar Şurası Rəyasət Heyətinin qərarı ilə professor Sabir Əliyevin "Respublikanın fəxri ağsaqqalı" adına layiq görüldüyünü diqqətə çatdırıb və xüsusi döş nişanını yubilyara təqdim edib.

Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və audit kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Əvəz Ələkbərov çıxışında Sabir müəllimə xas olan əsas xüsusiyyətləri böyük tarixi şəxsiyyətlərdən gətirdiyi sitatlarla səciyyələndirib: "Antik yunan filosofu Sokrat deyirdi ki, elm ancaq xoşniyyətli insanların əlində olanda fayda verir. Sabir müəllimin xeyirxahlığı, heç kimə pislik etməmək, heç kəsə mane olmamaq kimi yüksək insani keyfiyyətləri var və ona görə də sevilir".

Konsert proqramı ilə davam edən tədbirin sonunda yubilyar təşəkkür nitqi söyləyib. Professor S.Əliyev bildirib ki, əvvəlki natiqlərin də dediyi kimi, elm adamlarının yubileylərinin qeyd edilməsi ənənəsi Ulu Öndərin adı ilə bağlıdır və möhtərəm Prezidentimiz tərəfindən uğurla davam etdirilir: "Mənim yubiley tədbirim də bu ənənəyə sadiq qalan Səhiyyə Nazirliyi və Azərbaycan Tibb Universitetinin xeyir-duası ilə keçirildi. İlk növbədə səhiyyə naziri Teymur Musayevə, universitetimizin rektoru Gəray Gəraybəyliyə təşəkkür edirəm. Eyni zamanda təşkilati məsələlərin ağırlığını öz üzərinə götürən, kitabların nəşrində, filmin ərsəyə gəlməsində xüsusi zəhməti olan Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımova minnətdaram. Öz dəyərli vaxtlarını ayırıb yubiley tədbirində iştirak edən köhnə dostlarıma, akademiyanın üzvlərinə, deputatlara, universitetimizin professor-müəllim heyətinə, təsərrüfat işçilərinə, elmin-obamın mötəbər insanlarına, Qərbi azərbaycanlılara, Qaraqoyunlu camaatına dərin ehtiramımı çatdırıram. Son olaraq deyim ki, hamının xoşladığı bir kəlam var: "Allahımdan razıyam". Mənə görə isə xoşbəxt o adamdır ki, Allah ondan razıdır. Allah sizdən razı olsun, zəhmətinizi halal edin".

**Arif MƏMMƏDLİ**

# Savadı, işgüzarlığı və həyat təcrübəsi ilə hər kəsə örnək alim

**Azərbaycan təbabətində əvəzsiz xidmətləri olan görkəmli alim, dəyərli şəxsiyyət və ziyalı, professor Sabir Cahan oğlu Əliyevin anadan olmasının 80 ili tamam olub.**

O, 1944-cü ildə Qərbi Azərbaycanın Çəmbərək (Krasnoselo) rayonunun Əmirxeyir kəndində anadan olub. 1961-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu əla qiymətlərlə başa vurduqdan sonra Naftalan sanatoriyasının həkim-ordinatoru və müalicə işləri üzrə şöbə müdiri vəzifəsində çalışıb. 1969-1972-ci illərdə indiki ATU-nun Patoloji fiziologiya kafedrasının aspiranturasında təhsil alıb və 1973-cü ildə "Litium və sezium mikroelementlərinin reaktivliyə təsiri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Patoloji fiziologiya kafedrasında assistent, müəllim, dosent kimi elmi-pedaqoji fəaliyyətlə məşğul olub. Uzun illər kafedranın tədris hissə müdiri vəzifəsində çalışan Sabir müəllim 1992-ci ildə "Patologiya şəraitində limfanın element tərkibinin dəyişməsi və onun korreksiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə, daha sonra professor elmi adına layiq görülüb. 1999-cu ildə I Müalicə-profilaktika fakültəsinin dekanı, 2001-ci ildə isə Patoloji fiziologiya kafedrasının müdiri vəzifəsinə seçilib. Tədris sahəsindəki bilik və bacarıqları, kollektivdəki nüfuzu nəzərə alınaraq, professor S.Əliyev 2001-ci ildə ATU-nun Tədris işləri üzrə prorektoru təyin olunub. 2015-2016-cı tədris ilində ATU-nun rektoru vəzifəsini icra edib. 1992-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü və universitet üzrə partiya təşkilatının sədridir.

Professor Sabir Əliyev təkcə elmi deyil, həm də uğurlu pedaqoji fəaliyyəti ilə diqqət mərkəzindədir. Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə layiq görüldüyü "Əməkdar müəllim" adını iftixarla daşıyan S.Əliyev özünəməxsus dərin zəkası, geniş dünyagörüşü, təvazökarlığı, sadəliyi və insanpərvərliyi ilə tələbələr arasında böyük hörmət qazanıb. Professor 400-dən çox elmi əsərin, 8 dərslik və 10 dərs vəsaitinin müəllifidir. Məhz onun rəhbərliyi altında ilk dəfə 3 dildə: Azərbaycan, rus və ingilis dillərində patoloji fiziologiya fənni üzrə atlas-elektron dərslik işıq üzü görüb. Nəzəri fənlərin klinik təbabətdə rolunu əks etdirən böyük bir elmi məktəb yaradan alimin rəhbərliyi ilə 20 namizədlik və 3 doktorluq dissertasiyaları müdafiə olunub. 2003-cü ildə "VEKTOR" Beynəlxalq Elmi Mərkəzi Mükafat Komissiyasının qərarı ilə "Azərbaycanın tanınmış alimləri" beynəlxalq layihəsinin qalibi olub.

Professor Sabir Əliyevin səmərəli elmi-pedaqoji və ictimai fəaliyyəti istər dövlətimiz, istərsə də Səhiyyə Nazirliyi, Tibb Universitetinin rəhbərliyi və kollektivi tərəfindən layiqincə dəyərləndirilib. "Tərəqqi" (2007) və "Heydər Əliyevin 100 illiyi (1923-2023)" medallarına, "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Həmçinin "Türk dünyasına hizmetlerinden dolayı uluslararası altın yıldız" medalı, Birləşmiş Millətlər Təşkilatının "Şərəf və vicdan" ordeni, Avropa Akademiyasının Nikolay Piroqov ordeni, Avropa Şərəf ordeni, "Wilhelm Conrad Röntgen Medal"ı, Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü diplomu və digər çoxsaylı mükafatlarla təltif edilib.

Savadı, təfəkkürü, işgüzarlığı, zərrə-zərrə topladığı təcrübəsi ilə hər kəsə örnək olan professor Sabir Əliyevi yubileyi münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı arzulayırıq!

**Patoloji fiziologiya kafedrasının əməkdaşları**

# Beynəlxalq konqresdə uşaq sağlamlığı müzakirəyə çıxarılıb




**Azərbaycan Tibb Universitetində "Uşaq və cəmiyyət: sağlamlıq, inkişaf və qidalanma problemləri" mövzusunda XI Avrasiya uşaq həkimlərinin konqresi keçirilib.**

Tədbiri giriş sözü ilə açan ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov bildirib ki, uşaqlar hər bir dövlətin, bəşəriyyətin gələcəyidir. Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biri uşaqların sağlamlığı və qorunmasıdır. Ana və uşaqların sağlamlığı hər zaman diqqət mərkəzindədir. Uşaqların sağlamlıq vəziyyətində baş verən dəyişikliklərin erkən aşkarlanması, onların gələcəkdə ağırlaşmasına qarşı profilaktik tədbirlərin həyata keçirilməsi pediatrlar, neonatoloqlar, uşaq nevroloqları, uşaq cərrahları və digər mütəxəssislərin qarşısında duran mühüm vəzifələrdəndir.

Milli Məclisin deputatı Müşfiq Məmmədli dünyanın hər yerində uşaqlara qayğının xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət uşaq siyasəti Azərbaycanda milli strategiyaya çevrilib. Ölkəmizdə uşaqlara həmişə məhəbbətlə yanaşıldığını, onların sağlam və gümrah, eyni zamanda, savadlı və vətənpərvər böyümələri üçün hər cür şərait yaradıldığını vurğulayan millət vəkili, uşaq hüquqlarının müdafiəsi sahəsində real, güclü qanunvericilik bazasının formalaşdığını söyləyib.

Səhiyyə Nazirliyinin nümayəndəsi Aynurə Zeynalova vurğulayıb ki, uşaqların özləri və onların sağlamlıq problemləri necə müxtəlifdirsə, pediatriyanın istiqamətləri də fərqlidir.

Daha sonra Qırğızıstandakı Avrasiya Uşaq Həkimləri Federasiyasının prezidenti, professor Kamçibek Uzakbayev, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Rusiya Avrasiya Uşaq Həkimləri Federasiyasının fəxri sədri, professor B.Kaqanov, Rusiya EA-nın akademiki Aleksandr Qorelov, Çin Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, professor Sun Hujie, Şanxay Əməkdaşlıq Təşkilatı Xəstəxanaların Əməkdaşlıq Alyansının direktoru, professor Jiao Fuyun, Belarusun "Мать и дитя" Respublika Elmi-Praktik Mərkəzinin dosenti Larissa Qorbaç çıxışlarında konqresin işini yüksək qiymətləndirərək, gələcəkdə əməkdaşlığın daha da inkişaf edəcəyinə əminliklərini bildiriblər.

Açılış mərasimindən sonra konqres öz işini elmi sessiyalarla davam etdirib.

Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) sədri, MDB Ölkələrinin Pediatrları Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə çıxışında APA-nın ölkəmizdə uşaqların sağlamlığının qorunmasında, möhkəmləndirilməsində və milli pediatriyanın inkişafındakı xidmətlərindən söhbət açıb.

O, pediatriya sahəsində xidmətlərə yeni yanaşmanın tətbiq edilməsinin zəruriliyinə toxunaraq bildirib ki, uşaqlara yardım göstərən, onların sağlamlığının keşiyində duran həkimlərin bilik və bacarıqları daim təkmilləşdirilməlidir: "Əminəm ki, bu möhtəşəm tədbir pediatriya sahəsində yeni layihələrin daha səmərəli həyata keçirilməsinə stimul verəcək".

Tədbirin bədii hissəsi musiqili proqramla davam edib.

Daha sonra konqres çərçivəsində ana və uşaq sağlamlığı, ümumilikdə pediatriyanın inkişafına yönəlmiş mövzular üzrə plenar iclaslar keçirilib, elmi-tədqiqat işlərinin nəticələri müzakirə edilib.

**Oktyabrın 1-də Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzovun 2-ci və 3-cü kursların qrup nümayəndələri ilə görüşü olub.**

# Dekan qrup nümayəndələri ilə görüşüb



E.Novruzov bildirib ki, bu, semeströncəsi ənənəvi görüşlərdən biridir: "Eyni zamanda, hər hansı bir probleminiz, suallarınız, anlaşılmayan məsələləriniz varsa, biz burada onların müzakirəsini aparırıq. Əgər yerində həll olunası məsələdirsə, həll edir, yox əgər indi mümkün deyilsə, onu nəzərə götürür, yaxın zamanda aradan qaldırmağa çalışırıq".

Dekan qarşıdan aralıq qiymətləndirmə imtahanlarının gəldiyini də qrup nümayəndələrinin diqqətinə çatdırıb. Bu il aralıq imtahanlarının noyabrın 23-30-u arası keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib: "Bu müddət ərzində siz fənlər üzrə aralıq qiymətləndirməni verəcəksiniz. Kimsə bunu son tarix olaraq, noyabrın 30-u da bitirə bilər. Əgər noyabrın 30-u bitirərsə, artıq növbəti gündən etibarən dərslərə davam etməlidir. Yaxud kimsə noyabrın 28-i bitirərsə, 29-dan dərslərinə davam edəcək".

E.Novruzov görüş zamanı kollokvium mövzularına da toxunub. Bildirib ki, bunlar noyabrın 8-dək keçilən mövzular olacaq: "Kollokviuma mühazirə mövzuları salınmayacaq. Noyabrda bayram günləri ilə əlaqədar olaraq, ayın 12-sinə düşən dərslər 16 noyabrla, 13 noyabra düşən dərslər isə 23 noyabrla əvəzlənəcək.

Kollokviumda iştirak etməyən tələbə üzrlü hesab edilməyəcək. Yəni xəstəliklə bağlı arayış gətirsəniz də, bu nəzərə alınmayacaq. Kollokviumda yığdığınız maksimum bal 40-dır, iştirak etməsəniz həmin fəndən sıfır balla qiymətləndiriləcəksiniz. Sonra həmin şəxsə təkrar şərait yaradılmayacaq.

Nəzərinizə çatdırım ki, iyulun 27-dən etibarən universitetimiz elektron kargüzarlığa keçib. Texniki və ya başqa məsələlərlə bağlı hansısa probleminiz yaranarsa, ərizəni yazıb ümumi şöbəyə təqdim edə bilərsiniz, bundan sonra bütün qurumlar şikayətiniz üzrə ərizənizi cavablandıracaq".

Dekan xatırladıb ki, 11-22 noyabr tarixlərində Bakıda mötəbər COP29 tədbiri keçiriləcək. Həmin dövrdə dərslərin onlayn formatda keçirilməsi nəzərdə tutulub. Mühazirə məlumatları isə üç dildə amu.edu.az saytında yerləşdiriləcək.

E.Novruzov semestrin son gününün dekabrın 30-u olduğunu da qrup nümayəndələrinin diqqətinə çatdırıb: "Bir həftə öncəyə, yəni 14-cü həftənin sonunadək sərbəst işlərinizi bitirməlisiniz, 15-ci həftənin sonu isə müəllim qiymətlərinizi sistemə yazdırır. Bu barədə məlumat almaq üçün sistemdə özünüzə aid olan hissəyə daxil olur, müəllimin haqqınızda qiymətləndirmə balını ora daxil edib-etmədiyini müəyyənləşdirirsiniz. Əgər balınız yerləşdirilibsə, onu özünüzdə qeyd edib saxlayın. Yoxdursa, bu barədə müvafiq dekan müavininə məlumat verin. Çünki növbəti imtahana gedəndə bəzən məlum olur ki, imtahanqabağı balla bağlı hansısa tələbənin qeydiyyatı aparılmayıb".

Dekan, görüş zamanı əcnəbi tələbələrə də öz tövsiyələrini verib. Bildirib ki, sessiya imtahanları gələn il fevralın 1-də başa çatır. 3-4 fevralda isə 25 faiz krediti olanlar imtahan verir. Ona görə də öz ölkələrinə getmək istəyənlərə təyyarə biletlərini fevralın 4-dən sonraya almağı məsləhət görüb.

Elektron davamiyyətdən söhbət açan E.Novruzov bildirib ki, bu il bu sistemdə yeniliklər edilib. Belə ki, əvvəllər tələbələrin davamiyyətini izləmək mümkün olmurdusa, indi bu mümkündür: "Bu dəyişiklik şəffaflığa xidmət edir. Kimin davamiyyətində dərsburaxmalar çox olarsa, limitə yaxınlaşanda onun ad-soyadı avtomatik sarı rəngə boyanır, limiti keçirsə qırmızı rəngdə olur. Ona görə də hamı bilməlidir ki, kiminsə davamiyyətlə bağlı bəhanələri keçməyəcək və kimsə hansısa düzəliş apararsa, sistemdə görünəcək".

Daha sonra görüş diskussiya şəraitində davam edib, dekan qrup nümayəndələrinin çoxsaylı suallarını cavablandırıb.



# Müasir ictimai səhiyyənin nailiyyətlərinə həsr olunmuş seminar keçirilib

**ATU-nun İctimai səhiyyə fakültəsi Dövlət Gömrük Komitəsinin Mərkəzi Hospitalının rəis müavini, terapevt-kardioloq dr. Nabil Seyidovun iştirakı ilə "XXI əsrin ən mühüm ictimai səhiyyə nailiyyətləri" mövzusunda seminar təşkil edib.**

Seminar tələbələrlə interaktiv ünsiyyət formatında baş tutub. N.Seyidov aktual ictimai səhiyyə məsələləri ilə bağlı faydalı və əhəmiyyətli məlumatlar təqdim edərək tələbələrin suallarını cavablandırıb.

Fakültədən bildirilib ki, bu cür tədbirlər tələbələrin biliklərini artırmaqla yanaşı, onların müasir ictimai səhiyyə problemlərinə dair anlayışlarını genişləndirmək üçün də vacibdir. Bu baxımdan, gələcəkdə də keçirilməsi planlaşdırılan oxşar seminarlar tələbələrin inkişafını dəstəkləmək və onları müasir səhiyyə sisteminin tələblərinə uyğun hazırlamaq məqsədi daşıyır.

Qeyd olunub ki, tələbələrin aktivliyi bu cür seminarların uğurla həyata keçirilməsində mühüm rol oynayır və ictimai səhiyyə məsələləri ilə maraqlananlar gələcək tədbirlərdə iştirak etməyə çağırılıb.

# "STARTAPLARA ATU İLƏ BAŞLA"

## Tələbələrimiz üçün təlimlər davam edir





**Oktyabrın 4-dən etibarən Azərbaycan Tibb Universitetinin tələbələri üçün "Startaplara ATU ilə başla" layihəsi çərçivəsində təlimlərə start verilib. Elmi departamentin Startap və elmi tədbirlərin koordinasiyası şöbəsinin koordinatoru, təşkilat komitəsinin sədr müavini, dosent Ayət Cəfərova startap layihələrinin mahiyyəti, faydası barədə tələbələrə məlumat verib və onları fəal olmağa çağırıb.**

"KarnegiKlub" Treninq Mərkəzinin rəhbəri dr. Nəcəf Allahverdiyev tələbələr qarşısında startap layihələri və səhiyyədə marketinqlə bağlı geniş çıxış edib.

Oktyabrın 7-də İctimai səhiyyə fakültəsinin tələbələri üçün "İctimai səhiyyə fakültəsində marketinq və startap anlayışı: nəzəriyyədən uğurlu başlanğıca gedən yol" mövzusunda təlim keçirilib. 2-ci kurs tələbəsi Aysu Danyalova bu təlimin də Nəcəf Allahverdyev tərəfindən aparılacağını iştirakçıların diqqətinə çatdırıb.

N.Allahverdiyev öz çıxışında tibbin çox önəmli bir sahə olduğunu qeyd edib. Bunu tibb işçilərinin insan sağlamlığı ilə məşğul olmaları ilə əlaqələndirib: "Gələcəyin həkimləri olan sizlər öz peşənizlə yanaşı, yumşaq bacarıqlarla (soft skills) bağlı bilgilərə də yiyələnməlisiniz. Çünki bu halda pasiyentlərinizə tibbi və estetik marketinq baxımından düzgün yanaşa, gələcəyin yaxşı həkimi ola bilərsiniz".

"Əczaçılıqda marketinq" adlı növbəti təlimi "Egis" firmasının əməkdaşı Elvina Məmmədova aparıb. O öz marketinq təcrübəsini tələbələrlə bölüşüb.

Oktyabrın 9-da İctimai səhiyyə və Əczaçılıq fakültələrinin tələbələri üçün təlimlər davam edib. Bu dəfəki məruzəçi "İngress-academy"nin həmtəsisçisi İmran Yusubov olub. İ.Yusubov təlim zamanı startapların necə qurulması, idarə və inkişaf etdirilməsi sahəsində öz bilik və təcrübələrini tələbələrlə bölüşüb. İştirakçılar uğurlu startapın təməl prinsipləri ilə tanış olub və gələcək layihələr üçün qiymətli təcrübə qazanıblar.

Layihə çərçivəsində təlimlərin müxtəlif fakültələrin tələbələrini əhatə etməklə, oktyabrın 29-dək davam etməsi nəzərdə tutulub.

# Süd vəzi xərçəngi – ilkin əlamətləri olmayan qorxulu xəstəlik



## Dosent Nigar Mehdiyeva: Xəstəlik nə qədər tez aşkarlanarsa, müalicəsi də bir o qədər effektiv və uğurlu olar

**Ümumdünya Səhiyyə Təşkilatı 1992-ci ildən etibarən hər ilin oktyabr ayını “Süd Vəzi Xərçəngi ilə Mübarizə Ayı” elan edib. Simvolik olaraq “çəhrayı lent” ayı kimi xarakterizə edilən bu ay hər il ölkəmizdə də qeyd olunur və müxtəlif maarifləndirmə tədbirləri keçirilir. Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının müalicə işləri üzrə direktor müavini, baş həkim, dosent Nigar Mehdiyeva ölkəmizdə və dünyada bu xəstəliyə tutulma səbəbləri, nəticələri və eləcə də müalicə üsulları barədə məlumat verib.**

**- Nigar xanım süd vəzi xərçənginə ən çox hansı yaş qruplarında rast gəlinir?**

- Süd vəzi xərçəngi dünyada ən çox yayılmış onkoloji xəstəlik növlərindən biridir. Ona istənilən yaşda rast gəlinə bilər. Lakin bu xəstəliyin ən çox təsadüf etdiyi yaş 50-dən yuxarıdır. Düzdür, son 5-10 ilin göstəricilərinə nəzər saldıqda, bu xəstəliyin gəncləşdiyini müşahidə edirik. Bunun da əsas səbəbi dünya standartlarına uyğun erkən diaqnostikanın aparılmasıdır. Nəticədə, xəstəliyin aşkarlanması tezləşib. Eyni zamanda, bu artım xəstəliyin çoxaldığını da göstərir. Təəssüf ki, diaqnozu təsdiq edilmiş xəstələr arasında gənc xanımların sayı artmaqdadır.

**- Bəs ilkin əlamətləri hansılardır və əgər erkən aşkarlanıbsa, qarşısını almaq mümkündürmü?**

- Əfsuslar olsun ki, xəstəliyin erkən mərhələdə qeydə alınan spesifik simptomları yoxdur, ümumiyyətlə ilkin əlamətləri olmaya da bilər. Lakin əgər qadın süd vəzində hər hansı törəmə hiss edirsə, xüsusilə gilədən qanlı ifrazat gəlirsə, ölçülərin böyüməsi və ya kiçilməsi, şişkinlik, daimi ağrılar, qızartı, qoltuqaltı və körpüüstü nahiyələrdə törəmə və ya limfa düyünlərində dəyişiklik hiss olunursa, mütləq həkimə müraciət etmək lazımdır. Bundan əlavə, gilə və ariolada hər hansı bir dəyişikliyin, pulcuqlamanın, yaralanmanın olması, dərinin, gilənin içəriyə çəkilməsi də xərçəngin simptomları arasındadır. Burada əsas məsələ xəstələrin özlərinə qarşı diqqətli olmasıdır. Biz xəstələrimizlə və əhali arasında daim maarifləndirmə işləri aparanda ilk öncə bunu deyirik.

Nəzərə almaq lazımdır ki, süd vəzində baş verən istənilən dəyişiklik ilk baxışda nə qədər təhlükəsiz görünsə də, bu xəstəliyin əlaməti ola bilər. 35-40 yaşdan sonra hər bir qadın ildə bir dəfə həkim müayinəsindən keçməlidir. Əgər xəstəlik aşkarlanarsa, diaqnozun vaxtında və düzgün qoyulmasına, həmçinin müalicə taktikasının seçilməsinə köməklik göstərmiş olur. Müasir terapiyaların köməyi ilə xəstəlikdən əziyyət çəkənlər yaşamaq şansı əldə edirlər.

**- Süd vəzi xərçəngi ilə bağlı Onkoloji Klinikada aparılan diaqnostik müayinə və müalicə üsulları haqda məlumat verərdiniz.**

- Əksər xərçəng növlərində olduğu kimi, süd vəzi xərçəngi də nə qədər tez aşkarlanarsa, müalicə də bir o qədər effektiv və uğurlu olar. Bizim klinikada bu sahədə çox böyük işlər aparılır. Əlbəttə ki, erkən diaqnostikanın əsaslarından biri xəstənin düzgün məlumatlandırılmasıdır. Klinikamızda süd vəzinin müayinəsi üçün hər cür şərait var. O cümlədən çox müasir mamoqrafiya aparatımız mövcuddur. Məlum olduğu kimi, mamoqrafiya dünyada süd vəzi xərçənginin qızıl standartı sayılır. Klinikamızda SVX-nin ən müasir müayinəsi, o cümlədən skrininqi, son diaqnostik nailiyyətlərin istifadəsi ilə aparılan tru-cut biopsiya, əllənməyən şişlərin tellərlə işarələnməsi, kimyəvi dərman terapiyadan öncə törəmələrə kliplərin qoyulması və s. həyata keçirilir.

Klinikada böyük bir komanda təşkil edən mamoloqlarımız çalışır. Onlar mütəmadi olaraq xarici ölkələrdə konqres və konfranslarda iştirak edirlər. Bundan əlavə, xaricdə təhsil alan və yaxud işləyərək təcrübəsini artırıb yenidən ölkəmizə qayıdan və köməyini xəstələrdən əsirgəməyən bir çox mütəxəssislərimiz var. Bütün bunlarla yanaşı, klinikamız tərəfindən maarifləndirmə proqramları işlənib hazırlanır və rayonlarda tədris mərkəzilərinə göndərilir.

Hər il olduğu kimi, bu il də planlaşdırdığımız tədbirlərdən biri və ən önəmlisi Onkoloji Klinika və kafedramızın təşkilatçılığı ilə III Bakı Beynəlxalq Süd Vəzi Xərçəngi Konqresidir. Bu böyük tədbir artıq üçüncü dəfə ölkəmizdə keçiriləcək. Hamımızın hazırlaşdığımız COP29-la bağlı konqres noyabrın 29-30-da baş tutacaq. Konqresə Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Milli Onkologiya Mərkəzi, Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyası və Azərbaycan Onkoloqlar Cəmiyyəti də dəstək verəcək. Tədbirdə ölkəmizin aparıcı mütəxəssisləri ilə yanaşı, dünyanın 50-dən çox ölkəsindən dəvət olunmuş və bu sahədə tanınmış mütəxəssislər iştirak edəcək. Bundan başqa, konqres çərçivəsində Beynəlxalq Senoloji Cəmiyyətin Azərbaycan regional toplantısı təşkil olunacaq ki, bu da bizim üçün əlamətdar bir hadisədir.

**- Sonda bir mütəxəssis olaraq qadınlara məsləhətlərinizi eşitmək istərdik.**

- Məsləhətim odur ki, 35-40 yaşdan başlayaraq, ildə bir dəfə süd vəzi mamoqrafiyasından, 6 aydan bir isə mamoloqun baxışı və ultrasəs müayinəsindən keçsinlər. Bundan başqa, maqnit rezonans tomoqrafiyası müayinəsi həmin yaşa qədər olanlarda xəstəliyi müəyyən edən bir metoddur. Eləcə də qadınlarımız Milli Onkologiya Mərkəzində yaradılan səyyar mamoqrafiya xidməti, rayonlarımızın bir çoxunda, iri şəhərlərdəki diaqnostika mərkəzlərində fəaliyyət göstərən mamoqrafiya aparatlarından yararlana bilərlər.

Ümumiyyətlə, 40 yaşdan yuxarı qadınlarımız özünümüayinə metodlarına yiyələnməlidir. Güzgü qarşısında, əllər beldə, sonra isə başın arxasında olmaqla iki proyeksiyada (öndən və yandan), o cümlədən uzanıqlı vəziyyətdə süd vəzinə baxış aparmalı, əllərlə özünü müayinə etməlidirlər.

**M.ƏLƏKBƏRLİ**

# Gözlərimizi nurlandıranlar

## Ümumdünya Görmə Günündə Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsində olduq



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə hər il oktyabrın ikinci cümə axşamı Ümumdünya Görmə Günü kimi qeyd olunur. Həmin gün görmə qabiliyyəti zəif olan insanlara ictimai diqqəti yönəltmək üçün uyğun kampaniyalar keçirilir, ödənişsiz müayinələr, profilaktik tədbirlər aparılır, maarifləndirmə işləri görülür. Bəs bu günü bizim oftalmoloqlarımız necə qeyd edir?**

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsində olduq. Şöbə müdiri, dosent Qurban İsmayılovun bildirdiyinə görə, dünyada olduğu kimi, bu əlamətdar gün ölkəmizdə də xüsusi qeyd olunur: “Klinikamız dünya oftalmologiyasının istifadə etdiyi müasir cihazlarla təchiz olunub və bu cihazları idarə edən peşəkar həkimlərimiz var. Həmin cihazlar vasitəsilə xəstəlikləri vaxtında aşkarlamaq və müalicə etmək mümkündür”.

Şöbə müdirinin dediyinə görə, ATU rəhbərliyinin göstərişinə əsasən, hər il klinikada müxtəlif xeyriyyə tibbi aksiyaları təşkil edilir: “Valideyn himayəsindən məhrum tələbələr, şəhid, qazi ailə üzvləri üçün eksimer lazer əməliyyatı pulsuz icra olunur. Bu il 28 aprel görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın və 10 may Ulu Öndər Heydər Əliyevin doğum günləri münasibəti ilə xeyriyyə aksiyaları keçirdik. Builki aksiya 67 nəfərə şamil olundu. Şəhid, qazi, imkansız ailələrin övladlarına eksimer lazer əməliyyatı icra etdik”.

Mütəxəssis bildirdi ki, hazırda dünyada korluğa səbəb olan iki xəstəlik qrupu var. El arasında adı vahimə ilə çəkilən qlaukoma (qarasu) və şəkərli diabet: “Dünya təcrübəsinə və öz klinik təcrübəmizə əsasən, yaş qrupundan asılı olmayaraq, şəkərli diabet olan hər kəsin ən azı 3-6 aydan bir oftalmoloq tərəfindən göz dibi müayinəsi aparılmalı, onlar nəzarətdə saxlanılmalıdır.

Qlaukoma xəstələrində isə, gözün daxili təzyiqi mütəmadi ölçülməli, görmə sinirinin vəziyyətinə nəzarət olunmalıdır. Zərurət yaranarsa, pasiyentə uyğun müalicə tətbiq edilməlidir”.

Şöbə müdiri ilə söhbətdən sonra pasiyentlərin fikrini öyrənirik. Surxay Qurbanov deyir ki, Qurban həkimi 15 ildir tanıyır: “Göz sahəsində ən gözəl və inandığım həkimlərdəndir. Məhz ona görə, Gəncədən bura gəlmişəm. İlk dəfə həyat yoldaşımı müayinə üçün gətirmişdim. Hansı ki, onu Gəncədə yoxlatmışdım, həkimlər demişdi ki, əməliyyat olunmalıdır, gözlərində mirvari suyu var. Qurban həkimə müraciət etdim. Müayinə zamanı mirvari suyu aşkar olunmadı, əməliyyatsız müalicə ilə həyat yoldaşım sağaldı. Hazırda özünü normal hiss edir.

Məndə isə problem sağ gözümdə görmə qabiliyyətinin zəifləməsi idi. Həkimin məsləhəti ilə əməliyyat olundum. Əməliyyatdan öncə insanları tor görürdüm, indi aydın şəkildə görə bilirəm”.



Narıngül Orucova isə Şəmkirdən gəlib. Əməliyyatdan sonra təkrar müayinə olunur: “Həkimin yanına ilk dəfə nəvəmi gətirmişəm. Nəvəmin anadangəlmə hər iki gözündə çəplik var idi. 5-ci sinifdə oxuyanda Qurban həkim onu əməliyyat etdi. Nəticəsi uğurlu oldu, əməliyyatdan sonra gözləri düzəldi. Hazırda nəvəm orta məktəbi bitirib, eynək taxır. Gözlərində çəplik yoxdur. Həkimin dediyinə görə, eynəyi də yaxın vaxtlarda çıxaracaq, istifadə etməyəcək. Sonra bura başqa nəvələrimi də gətirmiş, nəticəsini görmüşük. Bizim vasitəmizlə qohum-əqrəbadan da Qurban həkimə müraciət edənlər olub, razı qalıblar.

Məndə də problem mirvari suyu idi. Əməliyyata qədər 3 faiz görürdüm. İndi görməm xeyli yaxşılaşıb, 40 faizə çatıb. Həkim deyir, daha da yaxşı görəcəksən”.

Pasiyent Elmira Hüseynova həm mirvari suyu, həm də şəkərli diabetdən əziyyət çəkir. Klinikaya ilk dəfə müraciət edir. Qurban həkim barədə



tanışlardan eşidib. Hələ müayinə tam bitməmişdi. Amma həkimin bildirdiyinə görə, əməliyyat olunma ehtimalı var, buna pasiyent özü qərar verəcək.

Oftalmologiya şöbəsinin həkimi Mina Həsənova pasiyent Telman Abbasovu əməliyyatöncəsi müayinə edir. Dediyinə görə, onda spekulyar mikroskopiya müayinəsi aparır: “Şöbəmiz ən müasir aparatlarla təchiz olunub. Biz həmin cihazlar vasitəsilə xəstələrimizin tam, dəqiq müayinəsini həyata keçiririk. Hazırda xəstəmiz üzərində aparılan müayinə əməliyyatdan önçəki prosedurdur. Xəstə əməliyyata hazırlıq mərhələsindədir. Bu müayinə vasitəsilə əməliyyat zamanı və əməliyyatdan sonra hansı fəsadların baş verəcəyini dəyərləndiririk, zamanında tədbir görmək imkanlarımız olur”.

Xəstələrin Oftalmologiya şöbəsi ilə bağlı xoş sözləri və şöbənin önündə olan növbədən hiss edirik ki, gözlərimizin sağlamlığını etibar edəcəyimiz peşəkar həkimlərimiz var. Məhz onların sayəsində gözlərimiz həmişə aydın görəcək.

**Qabil ABDULLAYEV**

# Dünya şöhrətli cərrah, istedadlı bəstəkar

## (Professor İbrahim Topçubaşovun 100 illiyinə)



**İbrahim Mustafa oğlu Topçubaşov 1924-cü il noyabrın 5-də Bakı şəhərində, dünya şöhrətli cərrah akademik Mustafa bəy Topçubaşovun ailəsində anadan olmuşdur. Anası Reyhan xanım respublikamızın ilk maarifpərvər, rəssam-musiqişünas qadınlarındandır.Teatr rəssamı kimi fəaliyyəti ilə yanaşı, o həm də Azərbaycan Rəssamlar İttifaqının sədr müavini vəzifəsində işləyirdi.**

Atası Mustafa bəy Topçubaşov isə ölkəmizin tanınmış novator cərrahlarından olmaqla, ictimai və dövlət xadimi kimi məşhur idi.

Bakı şəhər 16 saylı orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub, 1946-cı ildə oranı fərqlənmə diplomu ilə başa vurub.

1950-ci ildə klinik ordinaturanı bitirərək, 1950-53-cü illərdə Quba rayon xəstəxanasında cərrahiyyə şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Qəlbi doğma xalqına xidmət etmək arzusu ilə döyünən İ.M.Topçubaşov bu müddətdə həkimlik vəzifəsini şərəflə yerinə yetirməkdən əlavə, rayonun ictimai həyatında da fəal iştirak etmişdir.

Hələ tələbəlik illərindən elmi işə böyük maraq göstərən professor İ.M.Topçubaşov 1951-ci ildə "Analgezin keyitməsi zamanı xəstələrin sinirpsixi duyğuları" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1953-58-ci illərdə isə Maştağa qəsəbə xəstəxanasının cərrahiyyə şöbəsində müdir vəziəsində işləmişdir.

İ.M.Topçubaşov 1958-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun fakültə cərrahlığı kafedrasına dosent seçilmiş və 1963-cü ilədək bu vəzifədə çalışmışdır. O, 1961-ci ildə "Mədəaltı vəzi və fater məməciyinin xərçəngi" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş, 1963-cü ildə fakültə cərrahlığı kafedrasının professoru seçilmişdir.

İ.M.Topçubaşov geniş dünyagörüşünə, müstəsna istedada və dərin zəkaya malik idi. O, gərgin əməyi və böyük işgüzarlığı ilə hamını valeh edirdi. Məhz bunun nəticələridir ki, o, cərrahlığın müxtəlif sahələrində (abdominal və torakal cərrahlıqda, neyrocərrahlıqda, urologiyada) eyni qüvvə ilə müvəffəqiyyətlə işləyirdi.

Professor İ.M.Topçubaşov eyni zamanda həvəskar bəstəkar idi. Onun bəstələdiyi "Süfrə", "İntizar", "Anacan", "Görüş", "Hamıdan göyçək", "Mən həmişə səninləyəm", "Qubalı qız", "Söz olmasaydı", "Ərəb qızına", "Karvan", "Xəzərim" , "Narınc", "Oyan gözəlim", "Pambığım" və s. mahnıları bu gün də müğənnilərimizin repertuarını bəzəyir, radio və televiziyada tez-tez səsləndirilir.

Musiqinin cərrahiyyədə tətbiqi İbrahim Topçubaşovu daim düşündürən problem idi.

Təbabət tarixində I Dünya müharibəsinə qədər ilk dəfə Bexterev musiqinin müxtəlif xəstəliklərə təsiri məsələlərini öyrənmişdir. Musiqinin cərrahiyyə otağında (1914-cü il Keyn, Kirşner (1931) Çikaqo Universitet klinikasında (1948-1954-cü illər) tətbiq olunması İbrahim Topçubaşovda musiqinin cərrahiyyədə tətbiqi ideyasını yaradır. Əməliyyata qədərki dövrdə qorxu və həyəcan hissini, yuxusuzluğu, ümumi narahatlığı musiqi vasitəsilə aradan götürməklə, əməliyyatdan sonrakı dövrün qənaətbəxş keçməsinə nail olunur.

Əməliyyat otağına musiqini translyasiya edərkən, xəstənin musiqi zövqünün nəzərə alınması, musiqini eşitmə diapazonu, elektroensefaloqrafiya, elektrokardioqrafiya, hemodinamiki göstəricilər, tənəffüs tezliyi və s. öyrənilmişdir.

1965-ci ilin may ayında cərrahların Moskvada keçirilən ümumittifaq qurultayında İbrahim Topçubaşov "Təbabət və musiqi" mövzusunda çıxış etmişdir. Onun mahnıları Azərbaycanda, hətta bir sıra xarici ölkələrdə müəllifinə şöhrət qazandırmışdır. İ.Topçubaşov 1968-ci ildə Türkiyədə olarkən onun "Dağlarda duman gözəldi" mahnısı Nesrin Sipahi tərəfindən ifa olunmuşdur və müğənni həmin mahnını İranda yazılmış bir valdan götürdüyünü qeyd etmişdir.

İbrahim Topçubaşova görə, təbabətlə musiqi arasında getdikcə yaxınlıq daha da artır. Müsbət musiqi emosiyası qorxaqlığı, kədəri, kinliliyi dəf edir, insana həyat eşqi, yaşamaq həvəsi verir. Onun musiqi əsərləri Tehranda, İstanbulda, Qahirədə və s. şəhərlərdə lentə, vala köçürülərək əbədiləşdirilmişdir.

İ.Topçubaşov 140 elmi əsərin, dörd monoqrafiyanın, 4 səmərələşdirici təklifin və ixtiranın, 16000-ə qədər kiçik və böyük həcmli cərrahi əməliyyatın müəllifi olmuşdur. Moskva və Leninqrad, Bratislava, Praqa, Tokio, Roma, Budapeşt və Buxarestdə, Avstriyada, İstanbul və Ankarada, Bolqarıstanda və digər ölkələrdə Azərbaycan və keçmiş Sovet cərrahlığını dəfələrlə ləyaqətlə təmsil etmişdir.

Onun 1968-ci ildə Türkiyə Səhiyyə Nazirliyinin, Ankara Tibb Universitetinin və Türkiyə onkoloji cəmiyyətinin dəvəti ilə səfəri xüsusilə yaddaqalan olmuşdur. İ.Topçubaşov Ankara, İstanbul, İzmir universitetlərində bir ay ərzində 10 mühazirə oxumalı idi. Lakin Sovet səfirliyindən onun səfər müddətinin daha 15 gün uzadılması xahiş olunur. Türkiyə onkoloji cəmiyyətinin "Kanser haberleri" jurnalının 1968-ci il noyabr nömrəsi bütünlüklə onun Türkiyədə olduğu 45 günlük fəaliyyətinə həsr edilmişdi. Türkiyədə oxuduğu 24 mühazirənin qonorarını həmin universitetlərin cərrahiyyə klinikalarının hesabına köçürmüşdü. Bu səfər Məcid bəy Doğru, Mühiddin Ülkər, İzzət Kantemir ilə 1966-cı il Tokioda keçirilən XII Ümumdünya onkoloqlar konqresində əsası qoyulan dostluq əlaqələrini daha da möhkəmlətdi, İhsan Doğramaçı ilə dostluq əlaqələri yaratdı.

İtaliya vətəndaşlarına təmənnasız tibbi yardım göstərdiyinə görə, İtaliya hökuməti İ.Topçubaşovu ölkənin ən yüksək mükafatlarından biri sayılan "Haribaldi qızıl medalı" ilə təltif etmişdir. İtaliya cərrahiyyə cəmiyyətində "Qoca adamlarda cərrahi əməliyyat zamanı risk", Florensiya Universitetində "Öd daşı xəstəliyi və şəkərli diabet", Sofiya Universitetində "Xərçəngin əmələ gəlməsində radioaktiv şüaların rolu" mövzularında mühazirələr oxumuşdur.

Professor İbrahim Topçubaşov Azərbaycan cərrahlar cəmiyyəti idarə heyətinin üzvü, Azərbaycan SSR Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurasının Rəyasət Heyətinin üzvü, cərrahlıq üzrə problem komissiyasının sədri, "Eksperimental cərrahiyyə və anesteziologiya" jurnalının redaksiya şurasının üzvü, heronto-cərrahiyyə laboratoriyasının rəhbəri idi.

O, Piroqov adına Leninqrad, Vişnevski adına Moskva, eləcə də Rumıniya və Bolqarıstan cərrahiyyə, Yan-Purkinye adına Çexoslovakiya tibb, Türkiyə onkoloji cəmiyyətlərinin fəxri üzvü idi.

İbrahim Topçubaşov məhsuldar yaradıcılığının coşqun vaxtında, 23 fevral 1970-ci ildə vəfat etmişdir. O, 45 il 3 ay 29 gün mənalı bir ömür yaşadı.

Professor İbrahim Topçubaşovun parlaq, unudulmaz xatirəsi onu tanıyanların, tibb ictimaiyyətinin, tələbələrinin qəlbində əbədi yaşayacaqdır.

**Şəfa ƏLİYEV,**
*Əməkdar müəllim, III Cərrahi xəstəliklər kafedrasının dosenti, akademik M.A.Topçubaşovun xatirə muzeyinin rəhbəri*

# Tələbələrimiz Çində yay məktəbində olub

**Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinin 4-cü kurs tələbələri Fəridə Ağayarlı və Səidə Yaşarlı Çin Xalq Respublikasında olublar. Onlar ATU-nun rəsmi əməkdaşlıq etdiyi Şenzhen Universitetinin Tibb fakültəsində təşkil olunmuş "Molekulyar tibb" üzrə yay məktəbinə qatılaraq dəyərli təcrübə ilə geri dönüblər.**



Tələbələrimiz histon modifikasiyaları və DNT təmiri, qocalma prosesinin mexanizmləri, metabolik xəstəliklər və kardiovaskulyar homeostaz, infeksiya və immunitet, vərəmə qarşı immun müdafiə mexanizmləri, nanotibb, aktivləşdirilə bilən xərçəng terapiyası və digər elmi mövzular üzrə tanınmış professorlardan dərslər alıb və tədqiqat bacarıqlarını inkişaf etdiriblər.

Yay məktəbi çərçivəsində tələbələr laboratoriyalarda praktik təcrübələr apararaq, canlı hüceyrələrdə enerji metabolizmini ölçməyi və digər mühüm prosesləri mənimsəyiblər. Bu dərslər onlara nəzəri bilikləri praktik şəkildə tətbiq etməyə imkan verib.

Tələbələrimiz yay məktəbindən böyük təəssüratlarla qayıdıblar. İnanırıq ki, onların əldə etdikləri bilik və təcrübələr gələcək tədqiqat işlərində böyük dəstək olacaq.

# Əczaçılıq tibbi, sosial və iqtisadi əhəmiyyət kəsb edən sahədir

**Əczaçılıq tibbin ən vacib sahəsi olub dərman vasitələrinin axtarışı, emalı, istehsalı, sertifikatlaşması, saxlanması, satışı ilə formalaşır, mövcud dünya standartlarına uyğun inkişaf edir. Bu istiqamətdə müasir tədrisin, elmin təşkili ölkəmiz üçün həddən ziyadə vacib və əhəmiyyətlidir.**

Əczaçılar əvvəlcədən düşünən və tədbir görən mütəxəssislər olub, xəstələrin profilaktikası və müalicəsi üçün müxtəlif əczaçılıq məhsulları yaratmalıdır. Əgər hər hansı xəstəliyin müalicəsi üçün dərman vasitəsi yaradılmayıbsa, deməli o xəstəliyin müalicəsi də tam ola bilməz.

Əczaçılıq sektorunun inkişafı strateji, sosial və iqtisadi əhəmiyyət kəsb edir. Ona görə də dövlətimizin ən mühüm prioritetlərindən biri ölkədə əczaçılıq sektorunun strateji inkişafı siyasətini uğurla həll edib, əhalini fasiləsiz olaraq səmərəli, keyfiyyətli və təhlükəsiz dərmanlarla təmin etməkdən ibarətdir.

Müasir dövrdə Azərbaycanın hərtərəfli inkişafı təmin olunur və bütün əsas vəzifələr uğurla icra edilir. 2023-cü ilin əvvəlində Prezident İlham Əliyevin əczaçılıq sektorunun dayanıqlı inkişafına dair imzaladığı sərəncamdan irəli gələrək, əczaçılıqda təhsilin, elmin inkişafı, dərmanların satışı və əczaçılıq sənayesinin yaradılması vahid bir proqram kimi əczaçıların qarşısında dayanıb.



Ötən əsrin əvvəllərində Azərbaycanda əczaçı demək olar ki, yox idi. Ölkəmizin çox dəyərli dövlət və elm xadimi, professor Əziz Əliyev 1938-ci ildə Azərbaycanda Əczaçılıq İnstitutu yaratdı. Həmin institut 5 il fəaliyyət göstərərək ilk ali təhsilli əczaçılar yetişdirdi. II Dünya müharibəsi ilə əlaqədar 1942-ci ildə institut fəaliyyətini dayandırdı, Əczaçılıq fakültəsi kimi Azərbaycan Tibb İnstitutuna daxil edildi.

Hazırda universitetimizin Əczaçılıq fakültəsində 13 professor, 54 elmlər namizədi fəaliyyət göstərir. Rəhbərlik etdiyim kafedrada 2866 elmi məqalə və elmi tezis, 25 dərslik və dərs vəsaitləri, 95 patent və ixtira, 28 səmərələşdirici təklifə şəhadətnamə, 30 texniki şərt, 12 farmakopeya məqaləsi, 28 tədris metodiki vəsait, 26 metodik göstəriş çap olunub.

Kafedrada 43 fənn - 13 fənn bakalavr səviyyəsində, 29 fənn magistratura pilləsində tədris olunur. Bu fənlərin əksəriyyəti əvvəllər mövcud olmayıb. Kafedrada yeni dərs proqramları, yeni dərsliklər, dərs vəsaitləri çapdan çıxıb. Üç dildə (Azərbaycan, rus, ingilis) tələbələrə tədris edilən bu dərsliklər müasir tələblərə tam uyğundur. Kafedramızda 90-dan çox magistr, 40 namizədlik, 4 doktorluq dissertasiyası yerinə yetirilib və yetirilməkdədir. Mükəmməl təhsil bazamız var. Universitetimizin rektoru, professor Gəray Gəraybəylinin kafedramıza daim diqqəti sayəsində maddi-texniki bazamız yenilənir, müasir avadanlıq, cihazlarla təmin olunur. Bu da tədrisdə və elmi istiqamətdə öz nəticəsini göstərir. Əczaçılıq fakültəsində bir çox xarici ölkələrdən - Türkiyə, İran, İraq, Sudan və başqa ölkələrdən gələn tələbələrlə dərslər ingilis dilində aparılır və tələb olan dərs vəsaitləri bu dildə hazırlanır.

Qarşılıqlı təcrübəni bölüşmək və həmçinin yeniliklərlə tanış olmaq üçün daim beynəlxalq tədbirlərdə iştirak edirik. Belə əməkdaşlıq bizim fəaliyyətimizə çox müsbət təsir göstərir. Son illərdə Ümumdünya Səhiyyə Təşkilatı, UNESCO, Beynəlxalq Əczaçılıq Federasiyası kimi qurumlarla olan əlaqələrimiz Azərbaycanda əczaçılıq təhsilinin inkişafında mühüm rol oynayır. Hazırda dünyada bir çox sahələrdə olduğu kimi, tibb elmində, əczaçılıqda da sürətli dəyişikliklər baş verir. Belə bir şəraitdə əsas hədəfimiz həm əczaçılıq təhsilinin inkişafına və bu sahədə elmi tədqiqatlara, həm də əczaçılıq sənayesinin formalaşmasına öz töhfəmizi verməkdir.

Hazırda ölkəmizdən 5000-dən artıq ali təhsilli və 7000-dən çox orta təhsilli əczaçı peşəsinin nümayəndələri insanların sağlamlığının keşiyində dayanıb.

**Məhbubə VƏLİYEVA,**
*Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor*

**ATU-nun Rezidentura və Magistratura şöbəsi Tədris Cərrahiyyə Klinikasının Klinik-Diaqnostik Laboratoriya şöbəsi ilə birgə rezidentlər üçün "Kişi sonsuzluğu" (İnfertilite) mövzusunda seminar keçirib.**

# Kişi sonsuzluğu mövzusunda seminar keçirilib



Seminarda açılış nitqi söyləyən tədbirin moderatoru və təşkilatçısı, Rezidentura və Magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov bildirib ki, TCK-nın laboratoriya şöbəsi xəstələrə yüksək səviyyəli xidmət göstərməklə yanaşı, həm də universitetdə yüksək ixtisaslı kadrların hazırlanması işini həyata keçirir. Qeyd edib ki, erkən doğulan oğlan uşaqlarında əksər hallarda bir və ya ikitərəfli kriptorxizm müşahidə olunur. Xəstələr vaxtında cərrahi əməliyyat olunmazsa, gələcəkdə kişi sonsuzluğuna gətirib çıxara bilər.

Klinik-Diaqnostik Laboratoriya şöbəsinin müdiri Leyla Həşimova kişi sonsuzluğunun diaqnostikasında laborator müayinələrin rolundan bəhs edib və seminarın işinə uğurlar arzulayıb.

Biokimya kafedrasının müdiri, professor Gülnarə Əzizova sonsuzluğa təsir edə biləcək biokimyəvi göstəricilər haqqında məlumat verib. Həmin kafedranın professoru Tahirə Əsgərova isə sonsuzluğa səbəb olan genetik xəstəliklərdən geniş bəhs edib və öz təcrübəsini gənc mütəxəssislərlə paylaşıb.

Sonra Klinik-Diaqnostik Laboratoriya şöbəsinin həkimi Bəsti Məmmədova kişi sonsuzluğunun etiologiyası, klinik əlamətləri, laborator diaqnostikası, müalicə və profilaktikası haqqında ətraflı məlumat verib: "Son zamanlar hər 6-7 evlilikdən birində sonsuzluğa rast gəlinir. Çox təəssüf ki, bütün dünyada olduğu kimi, bizdə də evli cütlüklər arasında təbii yolla döllənmə prosesi mənfi tendensiya ilə artmaqdadır. Əgər evli cütlüklərdə heç bir qorunma olmadan düzənli cinsi əlaqə şəraitində 1 il ərzində hamiləlik baş verməzsə, bu hal sonsuzluq adlanır. Bu hal yaş tendensiyalarına görə dəyişir. Belə ki, qadının yaşı 35-40 aralığındadırsa və hamiləlik baş verməzsə 6 ay, 40 yaş üstündədirsə 3 ay sonra həkimə müraciət olunmalıdır".

Sözünə davam edən həkim sonsuzluğun 30-40% halda kişilərdəki patologiyalardan qaynaqlandığını deyib. Bildirib ki, hormonal disfunksiyalar, anadangəlmə irsi xəstəliklər, infeksion xəstəliklər, baş-beyin və testislərin travma və şişləri, orqan patologiyaları, metabolik sindromlar, kimyaterapiya, radioterapiya və s. bu patologiyalara aiddir. O, laborator diaqnostikada istifadə olunan eyakulyatın müayinəsi və təhlili, hormonların (LH, FSH, testesteron), Zn və fruktozanın təyini, MAR testi, poskoitał test və kruger boya haqqında seminar iştirakçılarına məlumat verib. Bundan sonra mövzuya uyğun hazırlanmış, klinik hallara dair test sualları rezidentlərə təqdim olunub.

Seminarda klinikanın Urologiya şöbəsinin həkimi Timurçin Məhərrəmbəyli və həkim-rezidentlər, həmçinin Klinik-Diaqnostik Laboratoriya şöbəsinin birinci və ikinci kurs həkim-rezidentləri iştirak ediblər.

Sonda mövzu ətrafında geniş diskussiyalar aparılıb.

# QHT nümayəndələrinə piylənmə və onun fəsadlarından danışılıb

**Oktyabrın 5-də Azərbaycan Milli QHT Forumu (AMQF) tərəfindən QHT-lərin iştirakı ilə "Sağlam həyat tərzinin təbliği, piylənmə və artıq çəki probleminə qarşı maarifləndirmə" mövzusunda tədbir keçirilib.**



Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının sədri, t.ü.f.d. Taryel Ömərov "Piylənməyə qarşı tibbi və sosial tədbirlər" mövzusunda təqdimatla çıxış edib. Tədbirdə iştirakçı QHT nümayəndələrinin böyük marağına səbəb olub, çoxsaylı suallar cavablandırılıb.

T.Qasımov piylənmə və artıq çəkinin törətdiyi fəsadlar, insan orqanizminə mənfi təsirləri barədə məlumatlılığın artırılmasının önəminə toxunub.

AMQF-nin İdarə Heyətinin sədri Ramil İskəndərli bildirib ki, bu yaxınlarda Prezident Administrasiyası, Səhiyyə Nazirliyi, QHT-lərə Dövlət Dəstəyi Agentliyi, TƏBİB, Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və AMQF-nin iştirakı ilə səhiyyə profili üzrə fəaliyyət göstərən bir qrup QHT-nin rəhbər şəxsləri ilə görüş keçirilib: "Piylənmə, gənclər arasında tütünçəkmə, spirtli içkilər əleyhinə təbliğatın gücləndirilməsi, bu mövzularda ictimai müzakirələrin təşkili, sağlam həyat tərzinin, bədən tərbiyəsinin geniş təbliği artıq sosial sifarişdir. Bu gün piylənmə əleyhinə keçirilən tədbir AMQF-nin sağlam həyat tərzinin təbliğinə dair başlatdığı silsilə tədbirlərin ilkidir".

O xatırladıb ki, Prezident İlham Əliyev dəfələrlə gənclərlə görüşlərində, hətta hökumət üzvləri ilə müşavirələrdə fiziki aktivlik mövzusuna toxunub, bu istiqamətdə faydalı tövsiyələr verib.

# 100 yaşlı xəstə Tədris Cərrahiyyə Klinikasında uğurlu əməliyyat olunub


AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
Seriya AZE № 16200288
Soyadı
ƏHMƏDOV
Adı
İSMAYIL
Atasının adı
MƏMMƏD OĞLU
Doğulduğu yer və tarix
AZƏRBAYCAN,DƏVƏÇİ ray.
XX.XX.1924
I<AZEAHMADOV<<ISMAYIL<<<<<<<<<<<<<<<
16200288<9AZE24<<<<6M<<<<<<03246AF15

1924-cü il təvəllüdlü Dəvəçi rayon sakini Əhmədov İsmayıl Məmməd oğlu oktyabrın əvvəllərində sağ bud sümüyü boynunun qapalı yerdəyişmiş sınığı diaqnozu ilə ATU-nun Tədris Cərrahiyyə Klinikasına müraciət edib. 100 yaşlı xəstənin yaxınları bildirib ki, onlar bura gələnə qədər bir neçə xəstəxanaya müraciət ediblər. Lakin xəstənin yaşı və ümumi vəziyyəti ilə əlaqədar onun üzərində cərrahiyyə əməliyyatından imtina olunub.



Xəstəni əməliyyat edən ATU-nun Travmatologiya və ortopediya kafedrasının assistenti, tibb elmləri namizədi İsmixan Mətiyevin verdiyi məlumata görə, bir gün ərzində əməliyyatönü hazırlıqdan sonra oktyabrın 4-də İ.Əhmədovun üzərində sağ bud-çanaq oynağının endoprotezləşdirilməsi əməliyyatı aparılıb: "Cərrahi əməliyyatdan sonra xəstə bir gün reanimasiya şöbəsində qaldı və ortopediya şöbəsinə köçürüldü. Bir gün sonra isə xəstəmiz artıq valkerlə hərəkət edə bilirdi. Hazırda xəstənin ümumi vəziyyəti yaxşıdır. Ayın 8-də xəstəni artıq evə yola saldıq. Qeyd edim ki, İsmayıl kişi İkinci dünya müharibəsinin veteranıdır və Prezident təqaüdçüsüdür".

Xəstənin özü və ailə üzvləri əməliyyatı yüksək səviyyədə icra edən İsmixan Mətiyev başda olmaqla, anestezioloq-reanimatoloqlar Məmməd Abbasov, Famil Mustafayev, Emin Quliyev, Esmira Nəsibova, Sona Quliyeva və bu uğurlu əməliyyatda əməyi keçən digər klinika əməkdaşlarına təşəkkürlərini bildiriblər.

Məlumat üçün onu da bildirək ki, əməkdaşımız İ.Mətiyev ABŞ-ın Nyu-York şəhərində, Hospital Special Surgery-də dünya şöhrətli alim C.S.Ranavatın ortopedik mərkəzində artroplastika üzrə fellow-ship proqramında iştirak edib.

# Əməkdaşlarımız iki gün ərzində master-klaslar keçib




**Səhiyyə Nazirliyi, İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Nevroloqların Milli Assosiasiyasının təşəbbüsü və Azərbaycan Uşaq Nevroloqları Assosiasiyasının təşkilatçılığı ilə kurslar keçirilib.**

"Kəskin İnsultda İrəliləmiş Dəstək-KİİD" təlim kursunun birinci modulu müvəffəqiyyətlə başa tutub. İnsult və serebrovskulyar xəstəliklərin yükü, risk amilləri, diaqnostikası və differensial diaqnostikası, irəliləmiş neyroradioloji görüntüləmə, trombektomiya və trombolitik terapiyanın tətbiqi və bir çox digər aktual mövzuları əhatə edən bu təlim kursunda həm təcrübəli nevroloqlar, reanimatoloqlar, neyrocərrahlar, neyroreabilitoloqlar, həm də gənc həkimlər, rezident-həkimlər iştirak edib.

Qeyd edək ki, Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli və kafedranın əməkdaşları, dosentlər Rahim Əliyev, Şəhla Mehtiyeva, Aygün Musayeva, Şəhla Məlikova, assistentlər Sevda Ələkbərova, Nuran Əmənullayev, o cümlədən həkim Fatimə Əliyeva iki gün ərzində kursun iştirakçılarına master-klaslar keçib, həmçinin müxtəlif sessiyaların moderatorları olublar.

"Kəskin İnsultda İrəliləmiş Dəstək-KİİD" təlim kursunun ikinci və üçüncü modullarının yaxın zamanda keçirilməsi planlaşdırılır.

# Türkiyəli müəllim tələbələrimizə mühazirə oxuyub



**Türkiyənin Ondokuz Mayis Universitetinin Sağlamlıq elmləri fakültəsinin müəllimi, dosent Nilay Çömük Balcı 23-27 sentyabr tarixlərində Azərbaycan Tibb Universitetinin tələbələrinə dərs keçib.**

Qonaq mütəxəssis bir həftə ərzində Fizioterapiya və tibbi reabilitasiya kafedrasında eyniadlı ixtisas üzrə tələbələrə praktik məşğələlər keçib, mühazirələr oxuyub.

Qeyd edək ki, türkiyəli müəllim "Erasmus mobillik proqramı" çərçivəsində ATU-da olub. Kursun sonunda Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov və müdir müavini, dosent Nigar Ələkbərova tərəfindən dr. Nilay Çömük Balcıya sertifikat təqdim edilib.

# "Pediatriya tibb bacılığı kursu" üzrə təlim başa tutub

**Tədris Cərrahiyyə Klinikasının "Pediatriya tibb bacılığı kursu" üzrə növbəti tədbir keçirilib. Klinikanın Neonatologiya şöbəsinin təşkilatçılığı ilə başa tutan tədbirdə tibb bacıları üçün Yenidoğulmuşların Canlandırılması Proqramı (NRP-8) üzrə təlim başa tutub.**

"Liv BonaDea" xəstəxanasında keçirilən kursda ATU-nun I Uşaq xəstəlikləri kafedrasının assistenti Sərxan Elbəyiyev, II Uşaq xəstəlikləri kafedrasının assistenti Sevinc Muxtarova, eləcə də Nərmin Rüstəmqızı və Tədris Cərrahiyyə Klinikasının Neonatologiya şöbəsinin digər həkimləri məruzəçi qismində iştirak ediblər. Bu dəfəki kursda tibb bacılarına yenidoğulmuşların doğum zalında canlandırılması prosesinin nəzəriyyəsi izah olunub, müşayiətedici slaydlar təqdim olunub.




Həmçinin tibb bacılarının praktik bacarıqlara yiyələnməsi məqsədilə mulyajlar üzərində bəzi əməliyyatlar, uşaqlarda ilkin klinik dəyərləndirmə, müsbət təzyiqli ventilyasiya, intubasiya, qapalı ürək masajı, dərman vasitələrindən düzgün istifadə, canlandırma proqramına uyğun axış sxemi və digər məsələlər kurs iştirakçılarına əyani olaraq nümayiş etdirilib.

# Universitetimiz X Bakı Beynəlxalq Kitab Sərgisində iştirak edib



**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində X Bakı Beynəlxalq Kitab Sərgisi (Baku International Book Fair - 2024) keçirilib. Bu ilki yubiley sərgisi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494-1556) anadan olmasının 530 illiyinə həsr olunub.**

Sərgidə 4 qitəni təmsil edən 19 ölkədən 47 xarici təşkilat, 100-dən artiq yerli nəşriyyat-poliqrafiya və digər əlaqəli müəssisələr qeydiyyatdan keçib. Azərbaycanla yanaşı, Türkiyə, İrlandiya, Almaniya, Venesuela və digər ölkələrdən tanınmış yazıçı və şairlər, elm adamları, gənc yazarların iştirak etdiyi kitab bayramı çərçivəsində uşaqlar və böyüklər üçün ustad dərsləri, inklüzivlik və digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, müsabiqələr, qiraət və musiqi saatları və kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları baş tutub.

Sərginin P1-226 saylı stendində Azərbaycan Tibb Universitetinə aid olan materiallar və tibdən bəhs edən kitablar yer alıb. ATU-nun stendini universitetimizin əməkdaşları və tələbələrlə yanaşı, bir çox elm və mədəniyyət xadimləri, ziyalılar, millət vəkilləri və digər qonaqlar ziyarət ediblər.

Kitab sərgisi çərçivəsində İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları - professor R.Çobanov, dosentlər Y.Hacıyeva və R.Liftiyev tərəfindən hazırlanmış "Tibb müəssisələrində risklərin idarə edilməsi" dərsliyinin təqdimatı baş tutub.

Tədbiri ATU-nun Əsaslı Kitabxanasının direktoru Ziyafət Eminova açıb. Adıçəkilən kafedranın müdiri və kitabın həmmüəllifi Yaqut Hacıyeva, eləcə də universitetimizin Rezedentura və magistratura şöbəsinin müdir müavini Əfsanə Məmmədova təqdimatda çıxış ediblər. Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Mikrobiologiya və epidemiologiya kafedrasının müdiri Nigar Mütəllibova, ATU Əsaslı Kitabxanasının direktor müavini Gülbehişt Orucova dərsliklə bağlı fikirlərini bildiriblər.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcidin qonaq qismində qatıldığı təqdimat mərasimində Azərbaycan Texniki Universiteti və digər ali məktəblərin nümayəndələri iştirak edib.

# Uşaqlarda payız xəstəlikləri

## Peyvənd və sadə qaydalara əməl etməklə, onların bir çoxundan yan keçmək mümkündür

**Payız fəslinin gəlməsi ilə soyuqdəymə, qrip və digər mövsümi xəstəliklər də baş qaldırıb. Xüsusilə uşaqlar daha tez-tez xəstələnirlər. Mövzu ilə bağlı Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının dosenti Könül Cəfərova ilə söhbətləşdik.**



K.Cəfərova bildirdi ki, sağlamlıq məsələsində böyüklərlə müqayisədə daha həssas olan uşaqlarda ilin fəslindən asılı olaraq bəzi xəstəliklərin ağırlaşması, davametmə müddətinin uzanması və geniş vüsət alması müşahidə edilir: “Nəzərə almaq lazımdır ki, insanların mövsümlə bağlı fiziki aktivliyi dəyişir. Belə ki, isti fəsillərdə fiziki aktivlik daha yüksək olur. Mövsümi geyimlərə keçid də ətraf mühitə adaptasiyanın mərhələlərindən biridir. Qışda ağır, yayda yüngül paltarların geyinilməsi də insan davranışında mövsümi dəyişikliklərə səbəb olur. Bəzi tədqiqatlarda göstərilir ki, uşaqların bədəninin daim geyimlərlə örtülməsi onlarda D vitamini defisitinə gətirib çıxarır.

Uşaqlarda mövsümi xəstəliklərlə bağlı ətraflı məlumatların olması, vaxtında profilaktik-müalicəvi tədbirlərinin aparılması valideynlərin, eləcə də uşaqlara qulluq göstərən mütəxəssislərin qayğısının xeyli azalmasına imkan verir”.

Bəs payızda hansı xəstəliklər daha çox özünü büruzə verir? K.Cəfərova qeyd etdi ki, bu mövsümdə təkcə respirator virus infeksiyaları, qrip deyil, başqa patologiyaların güclənməsi və geniş yayılması müşahidə olunur: bakterial konyunktivit, sinusit, sinir pozuntuları. Mövsümi qrip viruslarının isə 4 növü var - A, B, C və D. A və B qrip virusları dövr edir və mövsümi xəstəlik epidemiyalarına səbəb olur. Onun sözlərinə görə, qripə ilk yoluxma halları artıq avqustun sonlarından qeydə alınır: “Ən effektiv qoruyucu tədbir peyvənddir ki, onun nəticəsində yoluxma halları və ağırlaşmaların tezliyinin azaldılmasına nail olunur. Əsas simptomları isə bədən hərarətinin qəfil qalxması, öskürək (adətən quru), baş ağrıları, əzələ və oynaq ağrıları, ümumi əzginlik, boğaz ağrıları, zökəmdir. Valideynlər uşaqlarını qorumaq üçün onları insanların sıx olduğu yerlərdən kənar tutmalı, ictimai yerlərdə əllərin dezinfeksiyasına xüsusi diqqət yetirməlidirlər”.

Bakterial konyunktivitə toxunan müsahibimiz söylədi ki, payızda havaların soyuq keçməsi, uşaqların tətildən bağça və məktəblərə qayıtması yoluxma tezliyini artırır: “Konyunktivitin iltihablaşması baş verərsə, dərhal oftalmoloqa müraciət etmək lazımdır. Əsas profilaktik tədbir əl gigiyenasına diqqət etmək, ictimai yerlərdə hara gəldi toxunmaqdan çəkinməkdir”.

Sinusit isə, yuxarı tənəffüs yollarının kəskin və ya xroniki iltihablaşması zamanı ilkin zökəm infeksiyasının müalicəsinə lazımi diqqət yetirmədikdə, baş verir. Hər hansı mənşəli burun axıntısı 3 gündən çox davam edərsə və adi vasitələrlə aradan qaldırılması mümkün olmazsa, mütləq diaqnoz və müalicə üçün həkimə getmək lazımdır.

Mütəxəssisin dediyinə görə, daha bir mövsümi patologiya olan sinir pozuntuları xəstəlikləri gündüz saatlarının qısalması və soyuq havalar səbəbindən immunitetin zəifləməsi fonunda baş verir. Bunu önləmək üçün balanslaşdırılmış qida qəbuluna əməl olunmalı, təzə meyvə-tərəvəz, göyərtilər, balıq məhsulları rasiona daxil edilməlidir. O cümlədən normal yatmaq və stresdən uzaq durmaq vacibdir. Uzun müddət davam edən depressiya halında isə psixoterapevtə müraciət olunmalıdır.

Beləliklə, xəstəliklər və ağırlaşmalardan uzaq olması üçün uşaqlar vaksinasiya tədbirlərindən keçirilməli, onlar arasında əllərin düzgün yuyulması, burun, ağız boşluğu gigiyenası üzrə təlimlər aparılmalıdır. Eləcə də onların mövsümə uyğun geyinməsinə diqqət yetirilməli, infeksion xəstəliklərdən əziyyət çəkənlərlə təması azaldılmalıdır. Sadə qaydalara əməl etməklə uşaqların sağlam qalmasına və hər mövsümdən zövq almasına nail ola bilərik.

# Serbiyanın səhiyyə sistemi və mübadilə proqramı barədə təqdimat keçirilib

**İctimai səhiyyə fakültəsinin 5-ci kurs tələbəsi, fakültə Səhiyyə klubunun sədri Nailə Əhmədova Serbiyanın səhiyyə sistemi və mübadilə proqramı barədə təqdimat keçirib. Tədbirdə İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının professor-müəllim heyəti və İctimai səhiyyə ixtisasının 1-5-ci kurs tələbələri iştirak edib.**

Tədbirdə mübadilə proqramının tələbələrin karyera və şəxsi inkişafındakı önəmi vurğulanıb, həmçinin Serbiyada səhiyyə sisteminin Azərbaycan səhiyyə sistemi ilə müqayisəli təhlili aparılıb. Təqdimatın sonunda tələbə və müəllimlərin sualları cavablandırılıb.

Qeyd edək ki, İctimai səhiyyə ixtisası yeni bir ixtisas olduğu üçün bu cür tədbirlərin keçirilməsi xüsusi əhəmiyyətə malikdir. Çünki tələbələrin peşə motivasiyasını qaldırır və onlarda bu ixtisasa marağı gücləndirir.



Nevrologiya kafedrasının əməkdaşları kafedranın professoru **Zakir Əliyevin** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın assistenti Töhvə Əliyevaya qardaşı, professor **Zakir Əliyevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

**KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN**

## MÜSABİQƏ ELAN EDİR:

**Fakültənin dekanı:**
- I Müalicə-profilaktika fakültəsi

**Kafedraların professorları:**
- Ümumi cərrahlıq kafedrası - 1 yer (0,5 vahid)
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Normal fiziologiya kafedrası - 1 yer
- Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası - 1 yer
- Patoloji anatomiya kafedrası - 3 yer
- Patoloji fiziologiya kafedrası - 2 yer
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 2 yer
- Tibbi və bioloji fizika kafedrası - 2 yer
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 1 yer
- Allerqologiya və immunologiya kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Urologiya kafedrası - 1 yer
- Urologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer

**Kafedraların assistentləri:**
- Dermatovenerologiya kafedrası - 1 yer
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,25 vahid)
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji anatomiya kafedrası - 2 yer

**Kafedraların baş müəllimləri:**
- Bioloji kimya kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 3 yer
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 2 yer
- Normal fiziologiya kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 1 yer (0,5 vahid)
- Nevrologiya kafedrası - 1 yer (0,5 vahid)
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer

**Elmi Araşdırmalar Mərkəzi:**
-Patoloji proseslərin modelləşdirilməsi, eksperimental cərrahiyyə və terapiya şöbəsi (şöbə müdiri) - 1 yer

**Elmi Araşdırmalar Mərkəzi:**
- Tibbi kimya şöbəsi (böyük elmi işçi) - 1 yer (0,25 vahid)

**Elmi Araşdırmalar Mərkəzi:**
- Patoloji proseslərin modelləşdirilməsi, eksperimental cərrahiyyə və terapiya şöbəsi (kiçik elmi işçi) - 1 yer

**Elmi Araşdırmalar Mərkəzi:**
- Molekulyar biologiya və tibbi genetika şöbəsi (kiçik elmi işçi) - 1 yer (0,5 vahid)
- Elmi Tədqiqat İmmunologiya laboratoriyası (böyük elmi işçi) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. “Pedaqoji peşəkarlığın inkişafı” mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0017
Sayı 800